## Oğlum səni gəlin gətirəcəkdi

Balaca şəhid... Məktəbli qız Larisa
Məmmədova...hansı namərd sənə qıydı.

Hansı yaralıya köməyə qaçdın,
Hansı vurulana dayaq olmağa?
Niyə evdən çıxıb küçəyə qaçdın,
Üstünə dörd yandan od yağa-yağa?!

Yoxsa tablamadı köksündə ürək,
Yüyürüb ananın gözündən itdin?
Döyüş meydanına tələsən çiçək,
Sənin nə vaxtındı köməyə getdin?

Niyə məhv elədin özünü, niyə,
Hələ tumurcuqdun, gül açacaqdın,
Dönüb bir ətirli, gözəl qönçəyə,
Sağına, soluna nur saçacaqdın.

Köksündə yüz dilək bar verəcəkdi,
Paxıl yanacaqdı dərd çəkə-çəkə,
Oğlum səni gəlin gətirəcəkdi
Ulduzlu bir payız axşamı bəlkə...

Qeyrətli xalqımın şəhid balası,
Uyu, rahat uyu, yurdun əyilməz.
Şəhidlər ucaldan qeyrət qalası
Dünya qopub gəlsə basıla bilməz.

Qəbrinin üstündə çantan, önlüyün...
Baxıram , gözümdən yaş axır dən-dən.
Kiçik bir qızıyla altında göyün,
Gör hara yüksəldi anamız Vətən!...

Mehdi K. Oğlum səni gəlin gətirəcəkdi : şeir // Günəş. - 1991. – № 1.